# "SABAH SINAQDIR!" BİLİRSİZ BU NƏ DEMƏKDİR?!.


İzzət Orucova

Neft kimyası sahəsində bir çox elmi uğurlar qazanmış texnika elmləri doktoru, professor, AMEA Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutunun laboratoriya müdiri **Həqiqət Cavadova**: – "Bu, işi sınaqdan keçirilən alim, mühəndis, hər hansı bir kollektiv və onun hər bir üzvü üçün əmək poeziyası ilə dolu bir aləmdir", – deyirdi **İzzət xanım Orucova**

**İş otağında görüşdüyüm bu alim-qadın bir vaxtlar elmindən, məsləhətlərindən, özünəməxsus dünyasından bəhrələndiyi böyük alimin – İzzət xanım Orucovanın iş stolu arxasında əyləşməyi belə böyük məsuliyyət hesab edir. "İldə iki dəfə yığışıb İzzət xanımın məzarını ziyarətə gedirik. Demək olar ki, hər gün onu yada salırıq. Boynumuzda haqqı çoxdur". Həqiqət xanımın akademik, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, texnika elmləri doktoru, professor İzzət Orucova barədə xatirələrə vardığını hiss edib, suallarıma başlayıram...**

*– Həqiqət xanım, sizin sahəyə yaxın mütəxəssislərin qənaətinə görə, İzzət Orucova, daha çox, perspektivə işləyirmiş...*

– Bəli! İzzət xanım yüksək səviyyəli kimyaçı alimlərin hazırlanması işinə böyük əhəmiyyət verirdi. Onun elmi rəhbərliyi altında yetişmiş çoxsaylı milli kadrlarımız hazırda ölkəmizin müxtəlif elm və tədris ocaqlarında çalışır, bəziləri xarici ölkələrdə şöhrət qazanıb.

*– İzzət Orucovanın bu çətin elm yoluna gəlişi...*

– İzzət xanım 1932-ci ildə Azərbaycan Sənaye İnstitutunu bitirib, Elmi-Tədqiqat Neft Emalı İnstitutunda laborantlığa qəbul edildiyi gündən bütün ömrünü neft kimyası elminə həsr edib. İlk günlərdən yüksək keyfiyyətli sürtkü yağlarının işlənib hazırlanması məsələlərilə məşğul olub. Azərbaycanda geniş təşəkkül tapmış yeni və çox mühüm əhəmiyyətli elmi istiqamətlərdən olan aşqarlar kimyasının əsasını qoyanlardan biri idi İzzət xanım.

## İZZƏT XANIM ÇOX SADƏ İNSAN, ƏSL ALİM İDİ

İzzət xanımla bağlı bir nüansı da vurğulamaq istərdim. Belə ki, onun fəaliyyət dövründə bizdə bütün sənədləşmələr rus dilində aparılırdı. Öz dilimizdə çox şirin danışan İzzət xanım o vaxtların "rusdilli"lərindən idi və o, bu dildə qeyri-adi natiq idi. Ona ancaq mövzunu vermək kifayət idi; hazırlaşmadan rus dilində elə gözəl, elə elmi-populyar çıxışlar edirdi ki...

O heç bir şəxsi təmənnası olmayan əsl Azərbaycan qadını, dünyəvi alim, milli ziyalı idi. O vaxtlar institutumuzda namizədlik, doktorluq müdafiə edənlər dissertasiyalarını, təqdimatlarını rus dilində yazıb, təsdiq üçün Moskvaya – Ali Attestasiya Komissiyasına göndərməli idi. İnstitutda elə gənc alim yox idi ki, İzzət xanım onun dissertasiyasını oxuyub-redaktə etməmiş olsun. Həm elmi redaktə, həm də rus dilinin qrammatikası cəhətdən. Çox elmi işlərin müdafiəsində opponent olub. Bunlar çox məsuliyyətli işlər idi. Onun rəy verdiyi elmi işlər Moskvada qeydsiz-şərhsiz təsdiq olunurdu. Dedikcə sadə insan olan İzzət xanım həm də hər işə yarayan alim idi...

*– Özündə "alim olmaq asandır, adam olmaq - çətin" zərb-məsəlimizin hər iki məqamını özündə ehtiva edən əsl alim və insan...*

– Bəli! Hansı sahədə işləməsindən asılı olmayaraq, yerində olan, öz yerini tapan insan və ailm!..

Neft və Kimya İnstitutundan gələnlər burada işə laborantlıqdan başlayırdılar. Onların əsas işləri kimyəvi nümunələrin tərkibini 100° dərəcədə təyin etməkdən ibarət idi və bunların sayını gün ərzində 4-5-dən yuxarı qaldıra bilmirdilər. İzzət xanım isə laborantlığı dövründə hər gün 17-18 nümunənin tərkibini təyin edə bilirmiş! Onun







belə bir işgüzarlığı da var idi. Çoxlarının vurğuladığı kimi, onun bu çətin, mürəkkəb elm yolundakı uğurlarında ilk dəfə oynadığı Sevil obrazının da rolu olub.

Onu beynəlxalq konqreslərə dəvət edirdilər. Adı ilk kosmonavt-qadın Valentina Tereşkova kimi tanınmış adamlarla bir siyahıda çəkilirdi. Tutduğu vəzifələrdə, alimlik, ictimai xadimlik dərəcələrində bu qədər sadə görünən bu şəxsiyyət kənardan çox nüfuzlu görün-düyündən xəbərsiz kimi görünürdü.

## "SADƏLİYİMLƏ HƏYATDA HEÇ NƏ İTİRMƏMİŞƏM"

Onun ayrıca kabineti ancaq direktor işlədiyi vaxtlarda olub. Hətta bu kabinetdə də 4 nəfər əməkdaşı ilə birlikdə əyləşirdi. ...Sonralar bizə göndərilən bir cavan direktor müavini ona zəng edib deyəndə ki, "İzzət xanım, yanıma gəlin" – bizə çox pis təsir etdi. Bir gün dedim: "İzzət xanım, Sizi tez-tez ayağına çağıran bu anti-mental müavin haçan anlayacaq ki, Siz İzzət xanım Orucovasız?! Niyə bircə dəfə əlinizi stola vurub bunu ona dərk etdirmirsiz?" Pir olmuş mənə nə desə yaxşıdır? "Həqiqət, mən bu sadəliyimlə həyatda heç nə itirməmişəm, ələləri özü bilər..." O cümlə mənim beynimə necə də həkk olunub!..

***– Bəs heç demirsiz – bu qanirsiz qəhrəmanımızın bir qüsuru da olub, ya yox. Deyirlər "Hər gözəlin bir eybi olur" axı... Belə bir şey vardımı, Həqiqət xanım?..***

– Hə, xətti qəliz idi, məndən başqa heç kəs oxuya bilmirdi. Çox becid, tələskən yazırdı, özü də yazmağa başladımı, səhifə dolmamış qələmi yerə qoymazdı. O qədər sinədəftər, zehinli, diqqətcil idi ki! Təsəvvür edin, respublika zavodlarında istehsal olunan texniki yağlarla bağlı bütün əlamət-elementləri, sexlərdə gedən bütün prosesləri əzbərdən bilirdi. Axı, o vaxtlar istehsalatla elmi müəssisələrin birgə fəaliyyətinə çox ciddi yanaşılırdı. İndilər bizim oralara – zavod həyati və həyatına, müdirlərin qəbuluna düşməyimiz belə müşkülləşib.

İzzət xanımın gördüyü hər hansı elmi iş zavodlarda öz tətbiqini tapırdı. Aşqarlar sahəsindəki tədqiqatları istehsalatda yüksək nəticələr verirdi. O, SSRİ adlı böyük ölkənin müxtəlif sənaye sahələrində tətbiq edilən aşqarların ən seçkin müəlliflərindən idi.

***– Bayaq ondan əxz etdiyiniz peşə vərdişlərindən də söz açdınız...***

– Mən indi öz-özümə təəccüblənirəm ki, bu qədər rəqəm yadımda necə qalır. O bir dəfə dedi: "Həqiqət, çalış rəqəmləri yadında saxla. Bax, bəzən qızlardan rəqəm soruşanda, deyirlər, dayanın, dəftərə baxım". Mənsə o vaxt İzzət xanımın xüsusi vurğuyla tövsiyə etməsi səbəbilə bütün rəqəmləri əzbərdən deyirəm. Onun bütün tövsiyələri - Allah-təalanın rizası ilə, həmişə saatın xoş vaxtına düşüb...

## AD-SANLI, MEDALLI...

...Başqalarının yaxşı səs-sədasını eşidəndə gözləri parlayırdı. Amma öz şəxsi həyatı ilə bağlı xoşluq-xoşbəxtliklə danışdığı olmadı. Daim gülümsəsə də, dərdli qadın idi. Repressiya illərində həyat yoldaşını sürgün edəndə boşanmağa məcbur olublar; axı o vaxt adamları sürgünə ailəsilə birgə göndərirdilər. Sonralar Möhsün bəraət alır, Mingəçevirdə baş həkim işləyir. Yeganə oğulları Yılmazın xoşbəxtliyi naminə hər çətinliyə dözməli olurlar. Yılmaz fizika elmləri namizədi idi. Vaxtsız vəfat etdi. Yaxşı ki, rəhmətlik İzzət xanım bunu görmədi... Öz nəvələri Amerikaya köçüb, bacı-qardaşlarının uşaqları isə Bakıda yaşayırlar.

Sadə bir ailədə doğulub İzzət xanım. Atası bağban imiş və ailənin böyüyü olduğundan qazandığını bacı-qardaşlarına sərf edirmiş. Amma üç qız və iki oğlunu da yaxşı dolandırıb, tərbiyə edib, oxudub. Üç bacının üçü də o vaxtlar Lenin ordeninə layiq görülüb. Tamara Razində 6 nömrəli uşaq xəstəxanasının baş həkimi, Cavahir isə uzun illər Kitabxanaçılıq Texnikumunun direktoru olub. Qardaşları – Fuad yaxşı memar, Munib isə adlı-sanlı riyaziyyat müəllimi kimi tanınıb. Çox savadlı, ziyalı, kübar ailədirlər.

***– Deyirlər, hardan açılanan vaxtları da olurmuş...***

– Çox çəkinirdik ondan. Həm öz hörmətinə görə, həm də müdirimiz idi də...

Bir dəfə bərk hirsli, acıqlı vaxtında dedik, İzzət xanım, sizə çay süzək? Dedi, yox, çox sağ olun, özüm süzəcəm! Həmişə kolbada ("kimyəvi stəkan"da) dəmləyirdik çayı. Həmin gün də - təsadüfən kimyəvi məhlul hazırladığımız kolbadan öz stəkanına "dəm çayı" kimi süz, üstünə də dağsu al və gəl otur. Elə çayı ağzına təzəcə almışdı ki, "oy, oy!" deyib, stəkanı qoydu stolun üstünə. Biz də o ki var, güldük. Bir an o yan-bu yana baxınıb özü də bizə qoşuldu və "day bir də küsmərəm sizdən" - dedi.

Mədəaltı vəzisində problem var idi. 5 nömrəli xəstəxanada əməliyyat olunmuşdu. Bir neçə il sonra elə o xəstəlikdən vəfat etdi. Bizim evimiz xəstəxana ilə üzbəüz idi. Çoxları kimi, mən də hər gün ona baş çəkirdim. Bir gün qonaqlarımız vardı, gedə bilmədim, sabahısı dedi, "Həqiqət, dünən hər qapı açılanda elə bilirdim səni görəcəm..."

***– Onun stolu arxasında özünüzü necə hiss edirsiz?..***

– O mənim əlimdən çox tutub. Amma həm də məni "Çox həqiqətcil və çox işgüzar Həqiqət" adlandırıb başqalarının yanında. Deyirdi məndən öyrənin. O, həyatdan əxz etdiklərini işçilərinə də təlqin edirdi. İnstitutda təhsil alarkən ailə vəziyyətini bilən Cəfər Cabbarlı onu Kinostudiyada makinaçı kimi işə götürmüşdü. Makinada bilirsiz necə yazırdı! Otaqda olmayanda tez otururdum makinanın arxasında, gətirdiyi kitabları, qəzet-jurnalları oxuyurdum. Bütün bunlardan sonra bu yerdə – onun stolunda özümü necə hiss etməliyəm?..

***– Həqiqət xanım, bayaqdan İzzət xanımı yalnız elə "gözəl insan", "gözəl alim", "gözəl ana", "gözəl müdir" adlandırırsınız, bəs, axı, o, həm də qadın idi!..***

– Nidanızı anladım... Doktorluq müdafiəsinin ertəsi günü gördüm İzzət xanımın qanı qaradır. Səbəbini soruşdum, dinmədi. Əl çəkmədim. Handan-hana qayıtdı ki, sənə bir söz deyəcəm, amma öz aramızda qalmaq şərtilə.

Həqiqət xanım bunu deyib, gülümsünür və susur...

***– Hə, nə məsələ imiş?***

– Axı, rəhmətlik mənə demişdi "öz aramızda qalsın"...

***– Nəzərə alın ki, ən məxfi dövlət sirrlərinə də müəyyən zamandan sonra açılım "hüququ" verilir...***

– Dedi, "Həqiqət, dünən Yılmaz balam məni ağ yudu, qara sərdi. Dedi ki, sən orda çıxış edəndə çox ədalı, işvəkar görünürdün!.."

...1928-ci ildə Cəfər Cabbarlının ssenarisi (və eyniadlı əsəri) əsasında "Sevil" filminin sınaq çəkilişlərində İzzət xanımla birgə Nora adlı birini də sınaq çəkilişlərinə dəvət ediblərmiş. Şahidlərin dediyinə görə, İzzət xanım gözəl olmasaymış, Sevil rolunda o çəkiləcəymiş! Təsəvvür edirsiz?!

* * *

Həqiqət xanım stolun üstünə illərlə əziz xatirə kimi qoruyub saxladığı bir qovluq qoyur. Məni İzzət Orucovaya məxsus saralmış qəzet parçaları və fotolarla tanış edir. Gözüm sağlığında verdiyi müsahibələrdən birinə sataşır: "Təcrübələr, hesablamalar, nəticələr! Laboratoriyada edilən bu ilk "eskizlər" yavaş-yavaş gələcəyin mükəmməl bir əsərinə çevrilir. Elm aləminin, alimlər kollektivinin bu əsəri oxucuların deyil, mürəkkəb proseslərin, böyük təzyiqlərin imtahanından çıxmalı olacaq. Deməli, "Sabah sınaqdır!" Bilirsiniz bu nə deməkdir? Bu, işi sınaqdan keçirilən alim üçün, mühəndis, hər hansı



bir kollektiv və onun hər bir üzvü üçün əmək poeziyası ilə dolu bir aləmdir! Bu poeziyanı çap edib oxumaq mümkün deyil. Bunu yalnız yaşamaq, duymaq, dərk etmək olar. Bunun üçünsə sən öz əməyini, işini, peşəni sevməlisən, ona ürəkdən vurulmalısan. Mən öz peşəmi belə sevirəm!.."

Saminə Hidayətqızı

